# Qərbi Azərbaycan İcmasının fəaliyyəti ölkəmizdən kənarda da dəstəklənir

Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il martın 26-da imzaladığı fərmanında da bildirildiyi kimi, azərbaycanlılara qarşı soyqırımı əsrlər ərzində aparılıb və əsas məqsədi tarixi Azərbaycan ərazilərini ələ keçirmək olub.



Çar Rusiyasının dəstəyi ilə məqsədli şəkildə Cənubi Qafqaza köçürülən ermənilərin 200 ildən çox qəsbkarlığı, erməni vandalizmi 1905-ci ildən daha da intensivləşməyə və açıq forma almağa başlamışdır. Bu "ənənə" Azərbaycanın qərb hissəsində xüsusilə amansız olmuşdur. Ermənistan ordusu terrorçu "Daşnaksütyun" partiyasının silahlı birləşmələri ilə əlbir olaraq 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Sürməli, Şərur və digər bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş və etnik təmizləmə həyata keçirmişlər.

Yüz minlərlə azərbaycanlının öldürüldüyü İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq təşkil etməyə başlamışdır. 1948-1952, 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə oradan qovulmuşdular. Hazırda bir nəfər də olsun azərbaycanlı indi Ermənistan adlanan o ərazidə qalmayıb və azərbaycanlılara məxsus mədəni irs tamamilə dağıdılıb.

İfrat millətçi "Daşnaksütyun" partiyasının silahlı birləşmələri tərəfindən ötən əsrin əvvəllərində Bakıda törədilmiş kütləvi qətliamlar əvvəlki və sonrakı dövrlərdə tarixi Azərbaycan torpaqlarında xalqımıza qarşı həyata keçirilmiş genişmiqyaslı vəhşiliklərin dəhşətli tərkib hissəsidir.

Ermənistan beynəlxalq öhdəliklərinə rəğmən irqçi siyasətini günü bu gün də davam etdirir. Bu ölkə azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına mane olur, azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlər və terror aktları törətmiş Qaregin Njde, Andranik Ozanyan, Drastamat Kanayan, Monte Melkonyan kimi ünsürləri şöhrətləndirir və Njdeizm kimi irqçi ideologiyanı dövlət səviyyəsində təşviq edir.

Ermənilərin Cənubi Qafqaza ayaq basdığı ilk aylardan Azərbaycan xalqı, eləcə də azərbaycanlılarla dinc və sülh şəraitində yaşayan digər azsaylı xalqlardan olan ailələr də erməni hücumlarına, qətliamlarına məruz qalmış, ən nəhayət, qaçqınlıq və köçkünlük problemi ilə üzləşmişlər. Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. Ötən əsrin əvvəllərində dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə soydaşımız dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur.

Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. Təəssüf ki, sovet hakimiyyəti illərində bu barədə insan hüququnun qorunması və ədalətsizliyin qarşısının alınması rus məmurlarının dəstəyi ilə həllini tapmamışdır. Şükürlər olsun ki, Azərbaycan tarixi müstəqilliyinə qovuşduqdan sonra Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində erməni vandalizminə məruz qalmış insanların pozulmuş hüquqlarının bərpasının əsası qoyulmuşdur. Ulu Öndərin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və milli ordumuzun şücaəti sayəsində 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir.

"Qayıdış Konsepsiyası"nın tam həllinə nail olmaq üçün Qərbi Azərbaycan İcmasının Ümumdünya İnsan Hüquqları Günü münasibətilə tərəqqipərvər bəşəriyyətə ünvanladığı bəyanatında Ermənistanın qərbi azərbaycanlıların qayıdış hüququnu inkar etməklə insan hüquqlarını kobud şəkildə pozmağa davam etməsini, həmçinin bəzi xarici ölkələrin etnik və dini ayrı-seçkilik siyasəti nəticəsində Azərbaycan xalqının böyük ədalətsizliklə üzləşdiyi ciddi şəkildə diqqətə çatdırılır. "Əlavə narahatedici hal ondan ibarətdir ki, bəzi ölkələr azərbaycanofob, ayrı-seçkilik siyasətlərini "insan hüquqları" adı altında pərdələməyə çalışırlar. İnsan hüquqlarına ən böyük zərbəni məhz bu cür ikiüzlü siyasətlər vurur. Biz mahiyyətcə irqçi olan bu yanaşmaları qətiyyətlə pisləyir, bu cür hərəkətləri ifşa etmək üçün gələcəkdə də səylərimizi əsirgəməyəcəyimizi bildiririk.

Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına son qoymasını və bununla da yüz minlərlə keçmiş məcburi köçkünün hüquqlarının bərpasını alqışlayırıq. Həmçinin qeyd etməliyik ki, Prezident İlham Əliyevin qərbi azərbaycanlıların dinc şəkildə qayıdış hüququnun təmin edilməsi sahəsində göstərdiyi səylər, o cümlədən icmamız tərəfindən dekabrın 5-6-da keçirilmiş qayıdış hüququna dair ikinci beynəlxalq konfransa göndərdiyi tarixi müraciəti bizim qayıdış hüququmuza və bütövlükdə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin icrasına böyük töhfədir.

Biz beynəlxalq ictimaiyyəti qərbi azərbaycanlıların qayıdışı sahəsində davam edən səyləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə xidmət edən mühüm töhfə kimi alqışlamağa və dəstəkləməyə çağırırıq" - bəyanatda bildirilir.

Xatırladaq ki, ermənilər tərəfindən şantaj, təhdid və zor gücünə öz dədə-baba yurdundan qovulan insanlar xarici ölkələrdə də çoxluq təşkil edirlər. Qardaş ölkə olan Türkiyədə bu gün təxminən 1,5 milyon nəfərdən çox qərbi azərbaycanlı yaşayır. Qərbi Azərbaycan İcmasının ideya xəttini və fəaliyyətini dəstəkləyən Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının (QAİ) Türkiyə ofisinin açılışı olub. Türkiyənin dövlət rəsmilərinin, vilayət rəhbərliyinin, ziyalıların və İzmirdə yaşayan azərbaycanlıların iştirakı ilə təşkil olunan mərasimdə Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

Qərbi Azərbaycan İcmasının Türkiyə təmsilçisi Asif Qurban mətbuata açıqlamasında bu ofisin QAİ-nin Azərbaycandan kənarda açılan ilk ofislərindən olduğunu bildirib və Türkiyədə yaşayan Qərbi azərbaycanəsilli şəxsləri ətrafında birləşdirmək, qərbi azərbaycanlıların tarixi vətənlərinə qanunauyğun qayıdış hüququnu təşviq etmək məqsədi daşıdığını vurğulayıb.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov iştirakçılara XIX əsrdə çar Rusiyası tərəfindən Azərbaycana qarşı aparılan demoqrafiyanın dəyişdirilməsi siyasəti haqqında geniş məlumat verib, bunun davamında XX əsrdə Ermənistanın məqsədyönlü siyasəti ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın doğma yurdlarından didərgin salındığını bildirib. Səfir bir sıra dövlətlərin Azərbaycana qarşı siyasətində önə çıxan ikili standartlara diqqət çəkərək, qərbi azərbaycanlıların dədə-baba yurdlarına qayıtması hüququna etinasız yanaşmanın yolverilməz olduğunu qeyd edib. O, ümidvar olduğunu bildirib ki, Ümummilli Lider Heydər Əliyevin anım günü kimi önəmli bir tarixdə açılışı həyata keçirilən QAİ-nin Türkiyə təmsilçiliyi Azərbaycan həqiqətlərinin Türkiyə ictimaiyyətinə çatdırılmasında fəal rol oynayacaq.

Nümayəndəliyin fəaliyyət istiqamətləri arasında Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında ictimaiyyəti məlumatlandırmaq, ardıcıl şəkildə Qərbi Azərbaycandan deportasiya olunan 300 mindən çox soydaşımızın beynəlxalq səviyyədə haqq və hüquqlarının bərpa olunması istiqamətində beynəlxalq təşkilatlarla işi gücləndirmək kimi məsələlər yer alır.

Çar Rusiyasının, sonralar da sovet hökumətinin dəstəyi ilə öz tarixi torpaqlarından, dədə-baba yurdlarından zorla qovulan azərbaycanlılar Orta Asiya ölkələrində də çoxluq təşkil edir. Bunu cari ilin sentyabr-oktyabr aylarında "Özbəkistanda yaşayan Qərbi Azərbaycanlılar" İctimai Birliyinin yaradılması da təsdiq edir. İctimai Birliyə rəhbərlik əslən Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən olan İlham Yusif oğlu Abdullayevə etimad göstərilib. Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Birliyin yaradılması və fəaliyyətə başlaması münasibətilə keçirilən tədbirin iştirakçıları tarixi faktlarla Qərbi Azərbaycanda ermənilərin əsrlər boyu azərbaycanlılara qarşı törətdiyi etnik təmizləmə və deportasiya haqqında, eləcə də XIX-XX əsrlərdə azərbaycanlıların Qafqazın və Qərbi Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni mühitində oynadıqları mühüm rol barədə məlumatlandırılıb.

Əslən Qərbi Azərbaycandan olan Vidadi Qurbanov, İlham Abdullayev, Qalib Müslümov və digərləri onların dünyanın harasında yaşamasından asılı olmayaraq, öz ata-baba torpaqlarına qayıtmaq amalı ətrafında sıx birləşmələrinin vacibliyini yüksək dəyərləndiriblər. Azərbaycan dövlətinin, habelə Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı yürütmüş olduğu siyasətə tam dəstək olduqlarını, onların əlaqələndirilməsinin, məlumatlandırılmasının və mütəşəkkil hərəkət etməsinin vacibliyini vurğulayıblar.

Özbəkistanda jurnalist kimi fəaliyyət göstərən, əslən Qərbi Azərbaycandan olan Qulu Kəngərli mətbuata açıqlamalarında sözügedən təşəbbüsü dəstəkləyib. O, hazırkı Ermənistan ərazisində olan toponim və tarixi abidələrdən söz açaraq, hamısının türk mənşəli olduğunu qeyd edib. Q.Kəngərli Qərbi Azərbaycana qayıdış konsepsiyasının Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olduğunu bildirib.

Görünən odur ki, erməni terroru nəticəsində uzun illər boyu öz doğma torpaqlarından uzaq düşmüş insanlar haçansa öz yurdlarına qayıdacaqlarına böyük inam bəsləyirlər. Qərbi azərbaycanlıların hüquqlarının bərpası və onların öz ata-baba torpaqlarına qayıtması üçün Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasət, habelə Qərbi Azərbaycan İcmasının bu sahədəki çoxşaxəli fəaliyyəti ölkəmizdən kənarda da rəğbətlə dəstəklənir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 19 dekabr (№ 280).- S.9.